# BAKI DÖVLƏT UNİVERSİTETİ

---

## 2021-ci ildə Fəlsəfə kafedrasında
## elmi plan üzrə yerinə yetirilmiş
## elmi-tədqiqat işlərinin nəticələrinin

# HESABATI

| | |
|---|---|
| **Mövzunun adı:** | **Mənəvi mədəniyyət sistemində ictimai şüurun yeri** |
| **Mövzu rəhbərinin soyadı, adı və atasının adı:** | **Pənahova Kəmalə Həsən qızı** |
| **Mövzunun icra müddəti (başlama və bitmə tarixi):** | **01 yanvar 2021-ci il - 01 yanvar 2022-ci il** |

**Bakı - 2021**

**Mövzu üzrə icraçılar haqqında məlumat (icraçılar, birinci mövzu rəhbər yazılmaqla):**

| S/S | Soyadı, adı, atasının adı | Təvəllüd | Struktur | Vəzifəsi | Ştat vahidi | Elmi adı və dərəcəsi |
|---|---|---|---|---|---|---|
| 1. | Pənahova Kəmalə Həsən qızı | 22.09.1962 | Fəlsəfə kafedrası | Kafedra müdiri | 1 | Dosent, fəlsəfə üzrə fəlsəfə doktoru |
| 2. | Məmmədov Əziz Bəşir oğlu | 20.12.1938 | Fəlsəfə kafedrası | Müəllim | 1 | Professor, fəlsəfə elmləri doktoru |
| 3. | Hacıyev Zeynəddin Camal oğlu | 01.07.1941 | Fəlsəfə kafedrası | Müəllim | 1 | Professor, fəlsəfə elmləri doktoru |
| 4. | Əfəndiyev Fikrət Məhəmməd oğlu | 08.04.1943 | Fəlsəfə kafedrası | Müəllim | 1 | Professor, fəlsəfə elmləri doktoru |
| 5. | Həsənova Pərvin Əhməd qızı | 05.02.1939 | Fəlsəfə kafedrası | Müəllim | 1 | Dosent, fəlsəfə üzrə fəlsəfə doktoru |
| 6. | Tağıyev Arif İslam oğlu | 25.05.1940 | Fəlsəfə kafedrası | Müəllim | 1 | Dosent, fəlsəfə üzrə fəlsəfə doktoru |
| 7. | Namazova Aybala Firudin qızı | 25.04.1952 | Fəlsəfə kafedrası | Müəllim | 1 | Dosent, fəlsəfə üzrə fəlsəfə doktoru |
| 8. | Əlizadə Bilal Xudabaxış oğlu | 01.09.1958 | Fəlsəfə kafedrası | Müəllim | 1 | Dosent, fəlsəfə üzrə fəlsəfə doktoru |
| 9. | Məmmədov Hüseyn Qaraxan oğlu | 04.08.1959 | Fəlsəfə kafedrası | Müəllim | 1 | Dosent, fəlsəfə üzrə fəlsəfə doktoru |
| 10. | İslamov İslam Əhmədağa oğlu | 25.01.1963 | Fəlsəfə kafedrası | Müəllim | 1 | Dosent, fəlsəfə üzrə fəlsəfə doktoru |
| 11. | Mikayılova Nərminə Eldar qızı | 12.01.1959 | Fəlsəfə kafedrası | Müəllim | 1 | Dosent, fəlsəfə üzrə fəlsəfə doktoru |
| 12. | Yusifova Gülnarə Yusif qızı | 15.11.1965 | Fəlsəfə kafedrası | Baş müəllim | 1 | Fəlsəfə üzrə fəlsəfə doktoru |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 13. | Allahverdiyev Azər Muxtar oğlu | 21.03.1958 | Fəlsəfə kafedrası | Baş müəllim | 1 | Fəlsəfə üzrə fəlsəfə doktoru |
| 14. | Məcidova Nərgiz Həmid qızı | 12.08.1968 | Fəlsəfə kafedrası | Müəllim | 1 | Fəlsəfə üzrə fəlsəfə doktoru |
| 15. | Kərimova Nəzakət İsfəndiyar qızı | 01.01.1972 | Fəlsəfə kafedrası | Müəllim | 1 | Fəlsəfə üzrə fəlsəfə doktoru |
| 16. | Hüseynli Oktay Hüseyn oğlu | 20.07.1972 | Fəlsəfə kafedrası | Müəllim | 0,5 | Fəlsəfə üzrə fəlsəfə doktoru |
| 17. | Hüseynov Elmar Nəbi oğlu | 16.03.1983 | Fəlsəfə kafedrası | Müəllim | 1 | - |
| 18. | Kərimova Aygün Xəlil qızı | 02.10.1976 | Fəlsəfə kafedrası | Müəllim | 0,5 | Fəlsəfə üzrə fəlsəfə doktoru |
| 19. | Paşayeva Zeynəb Gülverdi qızı | 15.04.1952 | Fəlsəfə kafedrası | Baş laborant | 1 | - |
| 20. | Səmədova Ruxsarə Muxtar qızı | 17.04.1956 | Fəlsəfə kafedrası | Baş laborant | 1 | Fəlsəfə üzrə fəlsəfə doktoru |
| 21. | Rəcəbli Vəfa Zəkrulla qızı | 29.05.1981 | Fəlsəfə kafedrası | Baş laborant | 1 | - |
| 22. | Hüseynova Esmira Kərəm qızı | 08.07.1991 | Fəlsəfə kafedrası | Laborant | 1 | - |

| 1 | **Mövzu və mövzu üzrə cari ildə yerinə yetirilmiş elmi işlər**<br>*Plan üzrə hər bir mövzunun, hər bir elmi tədqiqat işinin aktuallığı,məqsədi və alınmış elmi nəticələr ayrılıqda göstərilməli, ad soyad tam yazılmalıdır.* |
|---|---|
| | **Mövzunun adı:** Mənəvi mədəniyyət sistemində ictimai şüurun yeri.<br><br>**Mövzunun aktuallığı və məqsədi:** Müasir dövrdə təbiət elmlərinin qazandığı uğurlar, müstəqillik qazandıqdan sonra ölkəmizdə hər bir sahədə gedən transformasiya prosesləri, həmçinin dünyada gedən qloballaşma prosesləri mənəvi mədəniyyət sistemində mühüm yer tutan ictimai şüurun formalarına da təsirsiz ötüşməmişdir. Həmin bu təsirlərin təhlil edilməsi mövzunun aktuallığın təşkil edir. Mövzunun məqsədi müasir dövrdə təbiətşünaslıq elminin inkişaf istiqamətlərini, cəmiyyətdə gedən müasir prosesləri nəzərə almaqla ictimai şüurda baş verən dəyişiklikləri, ictimai şüurun müxtəlif formaları arasından qarşılıqlı əlaqələrin dialektikasını təhlil etməkdir.<br><br>**Elmi tədqiqat işi 1. “Mistik şüurun spesifikliyi”.**<br>**Elmi tədqiqat işi üzrə çalışan əməkdaş: f.ü.f.d., dos. Kəmalə Pənahova.**<br>Mifoloji şüurdan doğan, eyni zamanda dinlə də bağlı olan mistika praktika, ritual, simvolikaların xarakterik formalarına, müəyyən ənənələrə və tərəfdarlara malik olmuşdur. Digər ictimai şüur formalarından fərqli olaraq, mistika da əxlaq kimi institutlaşmış müəssisələrə malik deyildir. Mistika özünü mistik təcrübənin spesifik növlərində, öz ardıcıllarının spesifik münasibətlərində maddiləşdirir. Mistik şüurun adi səviyyəsi spesifik miflər, rəvayətlər, cadugərlik üsulları, falçılıq, mövhumat və s.-dən ibarətdir. Bu səviyyə məhdud, mifoloji arxiteplərlə zəngindir.<br>Mistik nəzəriyyələr elm və ilahiyyatın standartlarına cavab verməsələr də cəmiyyətdə müəyyən dövrlərdə ona kütləvi meyletmələr müşahidə olunur. Mistikanın irrasional məzmunu hissi-emosional və intuitiv təzahürlərlə tamamlanır.<br>Mistik ilə İlahi varlığın əlaqəsinə əsaslanmaqla dünyanın xüsusi mənzərəsini formalaşdıran mistik şüur öz ardıcıllarından ibarət birlik üçün dünyagörüşü funksiyasını yerinə yetirir, mistik təcrübədən çıxış edərək aləmin təzahürlərinə məxsusi, sirli məna verir.<br>**Aktuallığı:** Müasir dövrdə mistikanın özünəməxsus xüsusiyyətlərinin artması, ctimai şüurun digər formaları olan din, fəlsəfə və elmdən fərqli xüsusiyyətlərinin meydana gəlməsi.<br>**Məqsədi:** Mistik şüurun nəzəri səviyyəsini, mistik istiqamət nümayəndələrinin sistemli intellektual fəaliyyətini və əsərlərini araşdırmaq.<br>**Alınmış nəticələr:** İnsanların düşüncə tərzinə və davranışlarına təsir etməklə öz tərəfdarları arasında requlyativ və kommunikativ funksiyaların üzə çıxarılması.<br><br>**Elmi tədqiqat işi 2. “İctimai şüurun məzmununda elmi rasionallığın mahiyyəti və tarixi tipləri”.**<br>**Elmi tədqiqat işi üzrə çalışan əməkdaş: f.e.d., prof. Əziz Məmmədov.**<br>Rasionallıq anlayışının bu kontekstdə anlaşılması ona əks olan “qeyri-rasionallıq” anlayışının da ümumi anlamını müəyyənləşdirməyə imkan verir: əgər rasionallıq formal |

| | |
|---|---|
| | məntiq qanunlarına adekvat olandırsa, deməli, qeyri-rasionallıq məntiq qanunlarından kənaraçıxma, sadəcə, onlara uyuşmazlıq deməkdir. Rasionallıq anlayışına amorf anlayış kimi baxmaq olmaz, bu anlayış əks etdirdiyi obyektiv reallığa uyğun olaraq mürəkkəb tərkibə malik olub, qarşılıqlı təsirdə olan üç elementdən ibarətdir: a) rasionallıq anlayışının ehtiva etdiyi nəzəri biliklərin rasionallığı; b) elmi tədqiqatda istifadə olunan metodların rasionallığı; c) elmi tədqiqatın subyektini təşkil edən alimin fəaliyyətinin rasionallığı. Dünyanın dərk edilməsi və intellektualcasına qiymətləndirilməsi prosesi özünün ən yüksək və təmərküzləşmiş ifadəsini elmdə tapır. Elm – dünyanın dərk olunmasına və onun məqsədəuyğun dəyişdirilməsinə doğru istiqamətlənmiş insan fəaliyyətinin ən yüksək formasıdır.<br>**Aktuallığı:** Müasir dövrdə rasionallığın insanın formal məntiq sferasına təsir göstərən və öz təbiətinə görə təfəkkürə uyğun reallaşan fəaliyyət kimi qəbul edilməsinin genişlənməsi.<br>**Məqsədi:** Elmi rasionallıq anlayışına toxunan müasir diskussiyaların üzə çıxarılaraq, onu qeyri-rasionallıq anlayışı ilə fərqləndirmək.<br>**Alınmış nəticələr:** Rasionallıq anlayışı amorf anlayış olmayıb, əks etdirdiyi obyektiv reallığa uyğun olaraq mürəkkəb tərkibli elementlərdən ibarətdir.<br><br>**Elmi tədqiqat işi 3. “İctimai psixologiya ictimai şüurun struktur bölgüsü kimi”.**<br>**Elmi tədqiqat işi üzrə çalışan əməkdaş: f.e.d., prof. Zeynəddin Hacıyev.**<br>Elmi-tədqiqat işində ictimai psixologiyanın ictimai şüurun strukturunda yeri və rolu araşdırılır, onu səciyyələndirən əsas cəhətlər açılıb göstərilir. Bu mənəvi həyat fenomeninin daxili tərkibi (sosial hisslər, əhval-ruhiyyə, ənənələr və sair) işıqlandırılır. İctimai psixologiyanın milli səpkisinin təhlilinə geniş diqqət yetirilir, Azərbaycan xalqının milli psixologiyası üçün xarakterik olan cəhətlər nəzərdən keçirilir. Bundan əlavə ictimai psixologiyanın adi şüur ilə münasibətləri təhlil edilir, onun fərdi şüur səpkisi tədqiq olunur. Müasir cəmiyyətdə ictimai psixologiyanın təsir gücünün artdığı qeyd olunur və onu şərtləndirən səbəblər göstərilir.<br>**Aktuallığı:** Müasir dövrdə ictimai psixologiyanın ictimai şüurun strukturunda yeri və rolu mürəkkəbləşir, bununla əlaqədar ictimai şüurun stuktur bölgüsü kimi araşdırılması xüsusi aktuallıq kəsb edir.<br>**Məqsədi:** İctimai psixologiyanın məzmununu təşkil edən biliklərin insanların gündəlik həyat prosesində geniş istifadə edilməsini üzə çıxarmaq.<br>**Alınmış nəticələr:** İctimai psixologiyanın cəmiyyətdə yerinə yetirdiyi funksiyalar üzərində geniş dayanılır, onların pozitiv və neqativ istiqamətlərdə özünü göstərə bildiyi vurğulanır.<br><br>**Elmi tədqiqat işi 4. “Elmin inkişafında ümumiləşdirmə prosesləri”.**<br>**Elmi tədqiqat işi üzrə çalışan əməkdaş: f.e.d., prof. Fikrət Əfəndiyev.**<br>İstənilən faktı sonsuz çoxsaylı vasitələrlə ümumiləşdirmək olar ki, onların arasından seçim edərkən sadəlikdən çıxış etmək lazımdır. Sadəlik üzərində hər cür ümumiləşdirmənin qurula biləcəyi zəruri vasitədir. Hər bir ümumiləşdirmə müəyyən dərəcəyə qədər mahiyyət etibarilə vəhdəti və sadəliyi əks etdirir. Aydın məsələdir ki, əgər sadəlik çıxış etməsək, onda sonsuz sayda mümkün ümumuləşdirmə variantları arasından müəyyən nəzəri |

ümumiləşdirməni həyata keçirmək mümkün olmayacaq. İlkin mərhələdə mövcud olan bütün mümkün variantların arasında ən sadə ümumiləşdirmə də mövcud olur. Daha sonra isə bu sadəlik vəziyyəti ya təsdiq edir, ya da mürəkkəbləşdirməyə və daha doğru ümumiləşdirmənin seçiminə yol açılır. Qeyd edilən bu fakt, bu tədqiqatda elmi biliklərin inkişafı kontekstində analiz edilir.

**Aktuallığı:** Müasir dövrdə elmin inkişafında ümimiləşdirmə proseslərinin genişlənməsi, bu prosesdə bir sıra nöqsanların üzə çıxarılması.

**Məqsədi:** Ümumiliyi formalaşdıran səbəbi və fərqi yaradan mənbəni dərk etmək və anlamaq.

**Alınmış nəticələr:** Elmin inkişafında ümumiləşdirmə proseslərinə münasibətdə sadəlik deyil, mürəkkəblik mövqeyindən yanaşılmalıdır.

**Elmi tədqiqat işi 5. "Elmi şüurda nəzəriyyə: mahiyyəti və sosial funksiyaları".**

**Elmi tədqiqat işi üzrə çalışan əməkdaş: f.ü.f.d., dos. Pərvin Həsənova.**

Elm mikro və makro aləmin, kosmik fəzanın, ictimai həyatın hadisələrinin və idrakın mahiyyətinə dərindən nüfuz etdikcə, nəzəri tədqiqatlarda yüksək dərəcəli abstraksiyalardan daha çox istifadə olunur. Bu isə təbii olaraq filosof və elm adamlarını tədqiqinə cəlb edir. Müasir dövrdə elmə olan bu maraq XXI əsrdə elmdə mühüm dəyişikliklərlə nəticələnir.

Biliyin ifadəsinin ən universal, ümumi forması nəzəriyyədir. Bir sıra mühüm prinsiplərin fərqinə baxmayaraq hipoteza və nəzəriyyə elmi biliyin təşkilinin iki müxtəlif formasıdır. Nəzəriyyə anlayışı son dərəcə geniş və çoxcəhətlidir. Elmi idrakın empirik və nəzəri metodlarının metodoloji gücü böyükdür. Bu metodlar nisbi müstəqilliyə malikdirlər.

**Aktuallığı:** Müasir dövrümüzdə elmin və texnikanın inkişafı ilə əlaqədar elmi şüurda mühüm dəyişikliklərin meydana gəlməsi.

**Məqsədi:** Elmi şüurda nəzəriyyənin mahiyyətini və onun sosial funksiyalarını üzə çıxarmaq.

**Alınmış nəticələr:** Elmi şüurda hipoteza və nəzəriyyə elmi biliyin əsas formaları olmaqla, universal xarakter daşıyırlar.

**Elmi tədqiqat işi 6. "İctimai şüurun tədqiqinin ontoloji aspekti".**

**Elmi tədqiqat işi üzrə çalışan əməkdaş: f.ü.f.d., dos. Arif Tağıyev.**

Elmi-tədqiqat işində ictimai şüurun ontoloji aspekti hərtərəfli şəkildə təhlil edilmişdir. İctimai şüur - cəmiyyətin mənəvi istehsalının böyük bir hissəsini təşkil etməklə ictimai varlığın inikasıdır. Adi gündəlik şüur ictimai şüurun ən kütləvi forması olmaq etibarilə konkret ictimai varlığa, adi gündəlik həyata münasibətdə fərdlərin əldə etdikləri konkret bilikləri, təsəvvürləri, insan birgəyaşayışına, milli və etnoqrafik xüsusiyyətlərinə, əxlaq normalarına, ailə və məişətə və həyat şəraitinə aidolan şüur səviyyəsidir.Elmi-nəzəri şüur sosial gerçəkliyin elmi və nəzəri cəhətdən sistemli və ümumiləşdirilmiş inikasıdır. O, daxili mahiyyətli qanun və kateqoriyalar vasitəsilə ifadə olunan inikasdır.

İctimai şüur nisbi müstəqilliyə malikdir. Lakin həmin müstəqillik mütləq olmayıb ictimai varlığın ictimai şüura müəyyənedici təsiri çərçivəsində baş verir.

**Aktuallığı:** Müasir dövrdə sosial hadisələrin geniş inkişafı ilə əlaqədar ictimai şüurun

ontoloji aspektinin tədqiqi məsələsi aktuallaşır.
**Məqsədi:** Sosial gerçəklikdəki hadisələrin ictimai şüurda əksinin üzə çıxarılması, onun nisbi müstəqilliyinin araşdırılması.
**Alınmış nəticələr:** Nisbi müstəqil inkişafın əsasında ictimai varlıqla ictimai şüur arasında «sərt əlaqələrin» istisnalığı qanunu durur.

**Elmi tədqiqat işi 7. "Əxlaqi şüurun sosial-fəlsəfi təhlili".**
**Elmi tədqiqat işi üzrə çalışan əməkdaş: f.ü.f.d., dos. Aybala Namazova.**
Elmi-tədqiqat işi əxlaqi şüurun sosial-fəlsəfi təhlilinə həsr edilmişdir. Sosial fəlsəfə sosial elm olaraq, cəmiyyət haqqında mövcud müxtəlif istiqamətli biliklərin vahid nəzəriyyədə birləşdirilməsi cəhdi kimi izah edilir. Eyni zamanda sosial fəlsəfə - bu ayrıca sosial hadisənin ümumi kontekstə daxil edilməsi üsulu kimi də göstərilə bilər. Fəlsəfənin bu bölməsi cəmiyyət və onun tarixi inkişafını öyrənir. Sosial fəlsəfənin obyektlərindən biri də ictimai şüurun növ müxtəlifliyi olan əxlaqi şüurdur. Əxlaqi şüur mənəviyyatın subyektiv tərəflərini əks etdirən əxlaqi münasibətləri ifadə edir. Əxlaq – mənəviyyatın sinonimidir. Əxlaqın cəmiyyətin fəaliyyətindəki tənzimləyici rolu durmadan artır. Əxlaqi şüura eyni zamanda əxlaqi prinsip və normalar daxildir. Əxlaqi normalar və prinsiplər ictimai münasibətlərdə və əmək fəaliyyətində insanların davranışını tənzimləyirlər. Onların köməyilə insanlar davranışlarını qiymətləndirirlər.
**Aktuallığı:** Müasir dövrdə ictimai şüurun növ müxtəlifliyi olan əxlaqi şüurun sosial-fəlsəfi analizinə ehtiyacın artması.
**Məqsədi:** Mənəviyyatın əsasında duran əxlaqi şüurun prinsip və normalarını araşdırmaq.
**Alınmış nəticələr:** Əxlaqi şüur cəmiyyətdə insanların ictimai davranışında, fəaliyyətində və bir-birinə münasibətlərində mühüm əhəmiyyət kəsb edir.

**Elmi tədqiqat işi 8. "Ekoloji şüurun strukturu və tipologiyası".**
**Elmi tədqiqat işi üzrə çalışan əməkdaş: f.ü.f.d., dos. Bilal Əlizadə.**
Elmi-tədqiqat işində ekoloji şüurun strukturu və tipologiyasının fəlsəfi təhlili verilmişdir. Bir sıra alimlər (Y.Markov, N.Vasilyev) aktual ekoloji problemlərin həllində vacib şərt rolunu oynayan ekoloji şüurun spesifikasını təhlil etməyə cəhd göstərmişlər. XX əsrdə ekoloji şüur haqqında təsəvvürlər əsaslı şəkildə dəyişilir. Ekoloji şüur bir çox mövqelərdən: gələcək baxımdan, iqtisadi baxımdan, bir də aksioloji baxımdan qiymətləndirilir.
Ekoloji şüurun strukturu və xüsusiyyətlərinin psixoloji tərəfinə müraciət etsək görərik ki, burada kifayət qədər mürəkkəb və məzmunlu məsələlər var. Ən əsas məsələ burada ekoloji şüurun mahiyyəti, strukturu, tipləri, fəaliyyət mexanizmləridir.
**Aktuallığı:** Müasir dövrdə Elmi Texniki Tərəqqinin nailiyyətləri ilə əlaqədar ekoloji problemlərin artması və bu əsasda ekoloji şüurun formalaşmasının vacibliyi.
**Məqsədi:** İctimai şüurun növ müxtəlifliyi olan ekoloji şüurun struktur və tipologiyasının üzə çıxarılması.
**Alınmış nəticələr:** Xüsusi tədqiqatlar əsasında ekoloji şüurun daşıyıcılarını dörd qrupa bölüblər. Bölgü əsas-ekoloji məsələlərin həllində yeni maliyyə mənbələrinin tapılması ilə bağlıdır.

**Elmi tədqiqat işi 9. “Hüquqi şüurun anlamı və tipologiyası”.**
**Elmi tədqiqat işi üzrə çalışan əməkdaş: f.ü.f.d., dos. Hüseyn Məmmədov.**
“Hüquqi şüurun anlamı və tipologiyası” mövzusunda yazılmış elmi-tədqiqat işində hüquqi şüurun mahiyyəti təhlil edilmiş, hüquqi şüur formal bərabərliyin inikası kimi, azadlığın inikası kimi, ədalətin inikası kimi xarakterizə olunmuşdur. Bərabərlik, azadlıq və ədalət müqayisəli şəkildə izah olunmuş və onların hüquqi şüurda yeri göstərilmişdir. Hüquqi şüurun tipologiyası təhlil edilərkən həm sosial aspekt, həm də hüquqi aspekt nəzərə alınmışdır. Təbii hüquq, pozitiv hüquq, yuridik hüquq və libertar hüquq tipləri həm də hüquqi şüurun tipləri kimi xarakterizə olunmuşdur. Bütün bu hüquqi şüur növləri, öz davranışında, hərəkətlərində və qarşılıqlı münasibətlərində ümumi normaya tabe olan müstəqil insanların ictimai münasibətlərinin forması kimi çıxış edirlər. Həmin subyektlərin qarşılıqlı münasibətlərinin hüquqi forması çərçivəsində bir-birindən müstəqilliyi və eyni zamanda onların ümumi normaya eyni, bərabər qaydada tabeçiliyi azadlığın varlığının ifadəsinin hüquqi formasının mahiyyətini ifadə edir.
**Aktuallığı:** Müasir dövrdə cəmiyyətdə problem-situasiyaların artması, insanların davranış və fəaliyyətlərində neqativ məqamların artması ilə əlaqədar hüquqi şüurun təhlili aktuallıq kəsb edir.
**Məqsədi:** Cəmiyyətdə mənfi məqamların aradan qaldırılması, insanların hüquq və azadlıqlarının müdafiəsi məqsədilə insanların hüquqi cəhətdən maarifləndirilməsi.
**Alınmış nəticələr:** Hüquq fərdlərin azadlığını, insanın qarşılıqlı münasibətlərinin azadlığını hərəkətlərdə, əməllərdə, bir sözlə, insanların zahiri davranışında ölçməyə xidmət edir.

**Elmi tədqiqat işi 10. “İctimai şüurun strukturunda ictimai ideologiya və ictimai psixologiya səviyyələri”.**
**Elmi tədqiqat işi üzrə çalışan əməkdaş: f.ü.f.d., dos. İslam İslamov.**
Elmi-tədqiqat işində ictimai şüurun struktur səviyyələri ətraflı təhlil edilir. İctimai şüurun strukturu özünün mürəkkəbliyi ilə seçilir. İlk növbədə burada iki səviyyə - gündəlik-praktik və elmi-nəzəri – fərqləndirilir. Gündəlik və praktiki şüur elmi və nəzəri şüurdan daha səthidir. İdeologiya fikir və nəzəriyyələr, dəyərlər və normalar, hərəkətlər üçün ideal və direktivlər sistemidir. Nəzəri məzmun etibarilə ideologiya, müəyyən bir sosial təbəqə nöqteyi-nəzərindən cəmiyyətin iqtisadi əlaqələrini əks etdirən hüquqi, siyasi, əxlaqi, estetik və digər fikirlərin birləşməsidir. Beləliklə, ictimai şüur, öz qanunlarına uyğun olaraq inkişaf edən və işləyən ictimai bir ağıl olaraq təyin edilə bilər. Sosial psixologiya və ideologiyanın delimitasiyasında reallığın özü haqqında biliklər deyil, bu biliklərə münasibət, ictimai həyatdakı rolu, xüsusi şüur subyektlərinin (siniflər, millətlər, xalqlar) ehtiyacları və ictimai fəaliyyət növləri ilə əlaqədardır.
**Aktuallığı:** Cəmiyyətin mürəkkəb infrastruktura malik olması ilə əlaqədar ictimai psixologiya və ictimai ideologiyada dəyişikliklərin nəzərə çarpması, həmin səviyyələrin qarşılıqlı surətdə bir-birinə təsirinin genişlənməsi.

**Məqsədi:** İctimai psixologiya və ictimai ideologiyanın tərkib elementlərinin üzə çıxarılması və şüur subyektlərinin davranışlarında təsir imkanlarının öyrənilməsi.
**Alınmış nəticələr:** Gündəlik-praktiki səviyyədə ictimai şüur özünü sosial psixologiya, elmi-nəzəri səviyyədə isə ideologiya kimi göstərir.

**Elmi tədqiqat işi 11. "Estetik tələbat və şəxsiyyətin mənəvi inkişafı".**
**Elmi tədqiqat işi üzrə çalışan əməkdaş: f.ü.f.d., dos. Nərminə Mikayılova.**
Elmi-tədqaqat işində estetik tələbatlardan və şəxsiyyətin mənəvi inkişafından bəhs edilir. İnsanın tələbatları onun həyat fəaliyyətinin daxili stimulu olaraq özündə fəaliyyətin özünəməxsus proqramını əks etdirir. Estetik tələbatlar sferasının obyektini təkcə incəsənət deyil, gerçəkliyin istənilən obyekti – təbiət, insan və s. təşkil edə bilər. Estetik tələbatlar şəxsiyyətin mənəvi inkişafında müəyyən rol oynayırlar. Şəxsiyyətin formalaşması problemi estetik tələbatların formalaşması problemi ilə sıx əlaqədardır. Estetik tələbatların şəxsiyyətin mənəvi inkişafına təsiri özünü onun intellektində, dünyagörüşündə, hissi-emosional və yaradıcı bacarıqlarında biruzə verir. Bundan faydalanaraq estetik tələbatlar şəxsiyyətin kompleks mənəvi inkişaf faktoru kimi çıxış edir, onun hormoniyasını və bütövlüyünü təmin edir.
**Aktuallığı:** Elmi Texniki Tərəqqinin inkişafı ilə əlaqədar olaraq estetik tələbatların və şəxsiyyətin mənəvi inkişafına şəraitin yaradılması və bunun təhlilinin vacibliyi.
**Məqsədi:** Estetik tələbatların şəxsiyyətin formalaşmasına, onun mənəvi cəhətdən inkişafına təsir imkanlarının üzə çıxarılması və bu sahədə tədqiqat aparan tədqiqatçıların işlərinin təhlili.
**Alınmış nəticələr:** Şəxsiyyətin mənəvi aləminin qeyd olunan məqamları bir-biri ilə dialektik əlaqədədir və onların inkişafı eyni zamanda baş verir.

**Elmi tədqiqat işi 12. "Əxlaqi və hüquqi şüurun strukturu və mahiyyəti".**
**Elmi tədqiqat işi üzrə çalışan əməkdaş: f.ü.f.d., b/m Gülnarə Yusifova.**
Əxlaqi və hüquqi şüurun strukturu və mahiyyəti mövzusunda yazılmış elmi-tədqiqat işinin başlanğıcında mövzunun aktuallığı əsaslandırılmışdır. Bundan sonra əxlaqi şüurun mahiyyəti və strukturu izah olunur. Əxlaqi şüur hüquqi şüur ilə birlikdə ictimai şüur formalarında olub, insanların cəmiyyətdəki fəaliyyətində, davranışlarının mənfi və ya müsbət istiqamətə yönəlməsində mühüm əhəmiyyətə malikdirlər. Əxlaqi şüurun strukturunu izah edərkən Arxangelski və Titarenkonun bölgüsündən istifadə edilir. Daha sonra hüquqi şüurun strukturu işıqlandırılır. Hüququn mahiyyəti Hegel, Russo kimi filosofların fikirlərinə əsaslanıb izah olunur. Hüququn strukturunda iki sistem göstərilir ki, bu da Parsonsun ideyalarına söykənir. Sonda isə əxlaqi və hüquqi şüurun dialektikası və əhəmiyyəti göstərilmişdir.
**Aktuallığı:** Müasir dövrdə cəmiyyətdə əxlaqi və hüquqi şüurun strukturunda böyük dəyişikliklərin təhlil edilməsinin zəruriliyi yaranmışdır.
**Məqsədi:** Əxlaqi və hüquqi şüurun strukturunun təhlil etmək və mahiyyətini açmaq.
**Alınmış nəticələr:** Əxlaq insanın ətraf aləmi mənimsəməsinin xüsusi üsulu olub,

cəmiyyətin mənəvi cəhətdən tənzimlənməsində həlledici rol oynayır.

**Elmi tədqiqat işi 13. "İctimai şüurun təbiəti, mahiyyəti və strukturu".**
**Elmi tədqiqat işi üzrə çalışan əməkdaş: b\m. Azər Allahverdiyev.**

Tədqiqat işi cəmiyyətin mənəvi həyatının əsasını təşkil edən ictimai şüurun aktual problemlərinə həsr olunub. İşdə ictimai şüurun təbiəti, onun mahiyyəti və strukturu məsələləri nəzərdən keçirilir. İctimai şüurun sosial təbiətə malik olması vurğulanır, ictimai və fərdi şüurun mahiyyəti, onların qarşılıqlı əlaqəsi araşdırılır. İctimai şüurun nisbi müstəqilliyi məsələsinə xüsusi diqqət yetirilir. İctimai şüurun strukturu həm qnoseoloji aspektdən (adi şüur və nəzəri şüur), həm də sosioloji aspektdən (ictimai psixologiya və ictimai ideologiya) təhlil olunur..

**Aktuallığı:** Müasir dövrdə cəmiyyətin mənəvi həyatının zənginləşməsi ilə əlaqədar olaraq, ictimai şüurun mahiyyətinin və strukturunun araşdırılması xüsusi aktuallıq kəsb edir.

**Məqsədi:** İctimai şüurun təbiətinin, mahiyyətinin və strukturunun araşdırılması, bu istiqamətdə tədqiqat aparan tədqiqatçıların elmi əsərlərinin təhlili.

**Alınmış nəticələr:** İctimai şüurun formaları – siyasi şüur, hüquqi şüur, estetik şüur, elm, fəlsəfə, əxlaq və din bir-birindən təcrid edilmiş şəkildə mövcud ola bilməz, bir-biri ilə qarşılıqlı əlaqədədir.

**Elmi tədqiqat işi 14. "Müasir ictimai şüurda antropoloji dönüş".**
**Elmi tədqiqat işi üzrə çalışan əməkdaş: f.ü.f.d., müəl. Nərgiz Məcidova.**

Bəşər sivilizasiyasının inkişafının müasir mərhələsini ifadə edən antropoloji çevriliş çox zaman tədqiqatçıların əsərlərində "antropoloji böhran" adlandırılır. "Böhran" anlayışı "insan" anlayışı ilə birləşdirilərək, XX-XXI əsrlərdə fəlsəfi refleksiyada mühüm yerlərdən birini tutdu.

Fəlsəfi fikir təbii və sosial aləmdə öz yerini tapa bilməyən insanın uyğunlaşmayan oriyentasiyasını qeydə alır. Onun rasional nəzarətdən çıxan və şəxsiyyətin dəyər oriyentasiyalarının formalaşmasına əhəmiyyətli təsir göstərən, onun arzu və cəhdləri ilə uyğunlaşmayan qüvvələr qarşısında acizliyi üzə çıxır. Hətta insanın mövcud həyat şəraitinə şüurlu və ya şüursuz şəkildə etiraz etməsi halında da, sosial təşkilatlar və institutlar qarşısında onun acizliyi nəzərə çarpır.

İnsan öz bütövlüyünü, unikallığını, fərdiliyini sərf edərək, passiv və simasız varlığa çevrilir. Daxili boşluq, özgələşmə, depressiya, psixi davamsızlıq insanın xarakter cəhətlərinə çevrilir, bu da onun müasir dünyaya humanist münasibətinə təsir göstərir. Sonrakı qloballaşma prosesləri belə dünyaqavrayışını cəmiyyətin xarakterik cəhətinə çevirdi.

**Aktuallığı:** XXI əsrdə bəşəriyyətin qloballaşma və humanitar inqilabla müşayiət olunan rəqəmsal informasiya inqilabının yeni mərhələsinə keçməsi mövzunun aktuallığını şərtləndirir.

**Məqsədi:** Müasir ictimai şüurda antropoloji dönüşün əsas məqamlarını, inkişaf istiqamətlərini aydınlaşdırmaq.

**Alınmış nəticələr:** ETT ilə əlaqədar baş verən antropoloji dönüş antropoloji böhranın bütün xarakterik xüsusiyyətlərini özündə birləşdirmişdir.

**Elmi tədqiqat işi 15. "Müasir cəmiyyətin inkişafının ideoloji determinantı".**
**Elmi tədqiqat işi üzrə çalışan əməkdaş: f.ü.f.d., müəl. Nəzakət Kərimova.**

Sosial qrupların, millətin, dövlətin və cəmiyyətin əsas mənafelərinin nəzəri ifadəsi olan ideologiya son dərəcə mürəkkəb anlayışdır. O, müvafiq sosial birliyin qabaqcıl nümayəndələri, nəzəriyyəçiləri, ideoloqları tərəfindən işlənib hazırlanır və əhalinin dünyagörüşünün formalaşmasına güclü təsir göstərir. Həqiqi, obyektiv ideologiya özünün predmet sahəsinin hadisələrini (müəyyən sosial qrupun köklü maraqlarını) dolğun səviyyədə əks etdirir. İnsan idrakının əsas forması olan elm də özünü ideya və dəyərlər sistemi kimi təqdim edir. Həm ideologiya, həm də elm müasir cəmiyyətdə vahid informasiya prosesinin elementləri kimi çıxış edir. Hər iki fenomen insanların praktik fəaliyyətinə istiqamətlənib. Elm və ideologiya arasındakı oxşarlıq öz ifadəsini yerinə yetirdikləri funksiyalarda tapır.

**Aktuallığı:** Cəmiyyətin inkişafı ilə əlaqədar olaraq ideoloji determinantların insanların şüuruna sirayət etməsinin genişlənməsi mövzunun aktuallığını şərtləndirir.

**Məqsədi:** Cəmiyyətin inkişafının əsas determinantı olan ideoloji determinantın cəmiyyətdəki rolunun və nəticələrinin araşdırılması.

**Alınmış nəticələr:** Həm elm, həm də ideologiya qnoseoloji, məntiqi, metodoloji, metodik və dünyagörüşü funksiyalarını yerinə yetirirlər.

**Elmi tədqiqat işi 16. "Əxlaqi şüurun sosial mahiyyəti".**
**Elmi tədqiqat işi üzrə çalışan əməkdaş: f.ü.f.d., müəl. Oktay Hüseynli.**

Elmi-tədqiqat işində əxlaqi şüurun sosial tələbat olduğu aşkara çıxarılır. Belə məqam vurğulanır ki, ən qədim şüur formalarından olan əxlaqın meydana gəlməsi, kökləri ictimai münasibətlər sistemində axtarılmışdır. Belə ki, insan hansı fəaliyyət səhəsində çalışmasından asılı olmayaraq bir-biri ilə qarşılıqlı təsirdə və asılılıqda olurlar. Bu vəziyyət onların ümumi davranış və birgə yaşayış qaydalarına əməl etmək zərurəti irəli sürülür. İşdə həm də göstərilir ki, qədim insanların adət və ənənələrindən qaynaqlanaraq sonralar inkişaf edərək mükəmməl və mürəkkəb sistemə çevrilmişdir.

**Aktuallığı:** Müasir dövrdə ETT-nin nailiyyətləri, cəmiyyətdə baş verən transformasiya prosesləri cəmiyyətdə ictimai şüur formalarından olan əxlaqi şüurun mahiyyətinin təhlilini, araşdırılmasını tələb edir, bu da həmin mövzunun aktuallığını şərtləndirir.

**Məqsədi:** Əxlaqi şüurun sosial mahiyyətinin açılması, onun cəmiyyətdəki funksiyalarının üzə çıxarılması, əxlaqi şüurun digər ictimai şüur formaları ilə qarşılıqlı əlaqəsinin aşkarlanması.

**Alınmış nəticələr:** Əxlaq fərdi və ümuminin vəhdətindən yaranır, həyat fəaliyyətinin məqsədli şəkildə reallaşdırılan fərdi mənasını ifadə edir və bununla yanaşı, ümumi əhəmiyyət daşıyan universal təbiətə malikdir.

**Elmi tədqiqat işi 17. "Nyuton fizikasının fəlsəfəsində insan zehninin neyrodinamik aktivliyə təsir ehtimalının qiymətləndirilməsi".**
**Elmi tədqiqat işi üzrə çalışan əməkdaş: müəl. Elmar Hüseynov.**

Psixi vəziyyət müstəqil səbəb faktoru ola bilərmi? Məkan-zaman kontinuumunda guya mövcud olmayan bir şey haqqında necə bilik əldə edə biləcəyimizi izah etmək məntiqi

| | |
|---|---|
